# **TED** NİTQLƏRİ

## KRİS ANDERSON

### KÜTLƏVİ ÇIXIŞLAR ÜÇÜN İLK RƏSMİ VƏSAİT

Tərcüməçi:
Rafail Kərimov

qanun nəşriyyatı

TEDTALKS

# CHRIS ANDERSON

## THE OFFICIAL TED GUIDE TO PUBLIC SPEAKING

Sizin əlinizdə təsiredici ünsiyyətə dair yeni vəsait var. Öz ideyalarınızı ətrafdakılara çatdırmağa ehtiyac duyursunuzsa və təqdimatlarda, çıxışlarda, kütləvi tədbirlərdə iştirak etmək istəyirsinizsə, bu kitabı hökmən oxuyun.

Uzun-uzadı məruzələr və cansıxıcı mühazirələr keçmişdə qaldı. Müasir dünyada dinləyicilərə öz fikrinizi çatdırmaq üçün cəmi bir neçə dəqiqə vaxtınız var. Bu kitabda təsirli kütləvi çıxışla necə möcüzə yaratmaq haqda söhbət açılır. Bu sahədə ən nüfuzlu adamın məsləhətindən istifadə edin. Və sizin çıxışınız unudulmaz olacaq.

*"Kris Anderson, sadəcə, təsirli çıxışların sirlərini açıqlamır, o, kütləvi çıxışların mədəniyyəti haqda da söhbət açır. Hər bir adam – bənnadan tutmuş prezidentə qədər öz fikirlərini aydın və inandırıcı şəkildə çatdırmağa məcburdur. Bundan əlavə, müəllif əmindir ki, bizim hər birimizin deməyə nə isə sözümüz var.*

**Chris Anderson** **TED TALKS:**
**THE OFFICIAL TED GUIDE TO PUBLIC SPEAKING**
**Kris Anderson** **TED NİTQLƏRİ:**
**KÜTLƏVİ ÇIXIŞLAR ÜÇÜN İLK RƏSMİ VƏSAİT**
Bakı, Qanun Nəşriyyatı, 2024, 280 səh.

Janr: non-fiction/özünüinkişaf, biznes
Yaş qrupu: 18+
Ölçü: 130x200 mm
Qapaq: yumşaq
Çapa imzalandı: 04.07.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Rafail Kərimov |
| Redaktor: | Cavid Zeynallı |
| Korrektor: | Həbibə Abdulla |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN: 978-9952-36-637-2

© Qanun Nəşriyyatı, 2019; 2023; 2024
Copyright © 2016 by Chris Anderson.
All rights reserved.

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

*Bu kitabın ərsəyə gəlməsinə*
*məni Zoi Anderson ruhlandırdı*
*(1986-2010)*

Həyat keçici, ideya daimidir.

# MÜNDƏRİCAT


**Giriş:**

Atəşin yeni dövrü ........ 11

**Əsaslar:**

1.Təqdimat savadı haqqında ........ 19

2.İdeyaların işlənib hazırlanması ........ 28

3.Geniş yayılmış səhvlər ........ 38

4.Çarpaz xətt ........ 46

**Faydalı vasitələr:**

5.Əlaqə ........ 63

6.Nağıletmə ........ 80

7.İzahetmə ........ 90

8.İnandırma ........ 105

9.Kəşf ........ 117

**Hazırlıq prosesi:**

10.Vizual vasitələr ........ 135

11.Çıxışın mətni ........ 152

12.Məşqlər ........ 170

13.Giriş və son ........ 179

**Səhnə mədəniyyəti:**

14.Geyim ........ 203

15.Mental hazırlıq ........ 207

16.Təşklatçılıq ........ 213

17.Səs və zahiri görünüş ........................................................ 222
18.İnnovativ format ................................................................ 234

**Düşüncə:**
19.Kütləvi çıxışların intibahı ................................................... 251
20.Bu nə üçün vacibdir?........................................................... 262
21.Sizin növbənizdir.................................................................271
Təşəkkürlər............................................................................. 276
**Əlavə**...................................................................................... 278

# Giriş

## ATƏŞİN YENİ DÖVRÜ

Salonda işıqlar söndü. Səhnəyə bir qadın çıxdı. Onun əlləri tərləmiş, ayaqları azca titrəyirdi. Projektorun işığı onun üzünə vurdu və 1200 insanın baxışları ona dikildi. Dinləyicilər onun həyəcanını hiss edirdilər. Salonda hiss ediləcək dərəcədə gərginlik hökm sürürdü. Qadın öskürməsini bitirib danışmağa başladı.

Sonra qəribə bir hal baş verdi.

1200 müstəqil adamın başındakı 1200 beyin qəribə davranmağa başladı. Onlar sinxron hərəkət edirdilər. Qadından saçan sehrli güc salondakı hər kəsə təsir edirdi. Onlar birlikdə diqqətlə dinləyir, birlikdə gülür, birlikdə ağlayırdılar. Bundan başqa daha nələrsə də baş verirdi. Qadının beyin hüceyrələrində kodlaşdırılmış zəngin informasiya axını hansısa vasitə ilə toplanaraq salondakı 1200 dinləyicinin beyninə ötürülürdü. Bu məlumat axını həmin adamların beyninə ömürlük həkk olunaraq onların gələcək davranışlarına təsirini göstərəcəkdir.

Qadın səhnədə möcüzə yaradırdı. O, cadugər deyildi, lakin təsiri o qədər güclü idi ki, bunu sehr kimi də qəbul etmək olardı.

Kimyəvi maddələr mübadiləsi əsasında qarışqalar bir-birilərinin hərəkətini tənzimləyə bilirlər. Biz bunları bir-birimizin önünə keçərək, gözünə baxaraq, əl hərəkətləri və müxtəlif səslər çıxarmaqla edirik. İnsanların qarşılıqlı ünsiyyəti, münasibəti dünyadakı möcüzələrdən biridir. Biz bunları daima və qeyri-şüurlu edirik. Bu, ünsiyyətin ən effektiv forması olan kütləvi çıxışdır.

Bu kitabın məqsədi belə çıxışların sehrli təsirini sizlərə izah etmək və bu möcüzəni yaratmaq üçün sizə ipucu verməkdir. Lakin bəzi məqamları əvvəlcədən qeyd etməliyik.

Çıxışlarınızı mükəmməl və təsirli etmək üçün vahid düzgün bir üslub mövcud deyil. Bunun üçün bir sıra üslublar var. Bilik aləmi bu iş üçün geniş bir meydandır. Bilməlisiniz ki, natiqlər və dinləyicilər də müxtəlif-

dirlər. Bu işdə vahid yol tapmaq uğursuzluğa məhkumdur. Dinləyicilər anında onlarla manipulyasiya olunduğunu başa düşüb, hiss edərlər.

Əgər hər hansı bir çıxış üslubu müəyyən bir dövrdə uğur qazanmışdısa, o demək deyil ki, bu təsir qalıcıdır. Bunun izahı çox sadədir: həqiqətən də, möhtəşəm və uğurlu çıxışın sirri onların yeniliyindədir. Biz hamımız insanıq. Bizə eyni şey xoş gəlmir, biz məlum və bayağı işləri bəyənmirik. Əgər sizin çıxışınız eşidilibsə və ya hansısa çıxışa bənzəyirsə, dinləyicilərə siz xoş təsir bağışlaya bilməzsiniz. Natiqlərin eyni səpkidə çıxış etmələrini və ya bir-birilərini yamsılamalarını biz hər şeydən az istəyirik.

Bu baxımdan da kitabdakı tövsiyələri çıxışlarınızda qanun olaraq qəbul etməməlisiz. Təsəvvür edin ki, rəngarənglik olsun deyə, mən sizə bir sıra üsul təklif edirəm. Bunlardan çıxış edəcəyiniz yerin mühitindən asılı olaraq lazım olanı istifadə edin. Sizin başlıca məqsədiniz çıxışınızı yalnız sizə məxsus olan şəkildə qurmaq və vacib olanları dinləyicilərə çatdırmaqdır.

Bu, göründüyündən daha da təsirli və təbiidir. Kütləvi çıxışlar insanların şüurunda kök salmış qədim sənət növüdür. Arxeoloji tapıntılardan məlum olmuşdur ki, hələ yüz min illər bundan öncə əcdadlarımız tonqal ətrafına toplaşardılar. Dünyanın hər yerində eyni mədəni hadisələr cərəyan edirdi: nitqin yaranması ilə insanlar bir-biri ilə öz həyat hekayələri, ümid və arzuları barədə bölüşməyə başlamışlar.

Belə bir tipik səhnəni təsəvvür edin. Gecəyarısıdır. Tonqal yanır. Çırpılar alovlanır, qığılcımlar ulduzlu səmaya yüksəlir. Qəbilə başçısı ayağa qalxır, bütün baxışlar onun tonqalın işığı ilə işıqlanan müdrik qırışlarla örtülmüş üzünə yönəlmişdir. Nağıl başlayır. Qəbilə başçısı danışarkən hər bir dinləyici onun təsvir etdiyi əhvalatları daxilində əks etdirirdi. Tarixi qəhrəmanların keçirdiyi emosiyaları dinləyicilər öz üzərlərində hiss edirdilər. Bu, qeyri-adi effektli bir prosesdir və çoxsaylı idrakların ümumi şüurda birləşməsi deməkdir. Tonqal ətrafındakılar zamanla özlərini vahid bir varlıq kimi hiss edirlər. Onlar birlikdə ayağa qalxıb rəqs edə, oxuya bilərlər. Və bu birlik içində onları birgə hərəkət etmək, harasa səfər etmək və ya döyüşə getmək, birgə nəsə tikmək və ya bayram etmək nəşəsindən cəmi bir addım ayırır.

Bu proseslər bu gün də davam edir. Lider və yaxud vəkil kütləvi çıxışı zamanı mərhəmət hissi oyatmağa, yaxud həyəcan yaratmağa, öz bilik və həqiqətlərini bölüşməyə və ümumi arzudan danışmağa səy göstərir.